# Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən "Heydər Əliyev və Məhəmməd Füzuli" adlı kitab çap olunub

Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən dahi şair Məhəmməd Füzulinin 530 illik yubileyi münasibəti ilə "Heydər Əliyev və Məhəmməd Füzuli" adlı kitab çap olunub.

Nəşrdə Ulu öndər Heydər Əliyevin Füzuli ilə bağlı fərman və sərəncamları, görkəmli ədibin yubileylərindəki çıxışları, həmin tədbirlərdən fotolar, həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin M.Füzulinin irsinin gələcək nəsillərə ötürülməsi, tədqiqi və təbliği məsələlərindəki tarixi xidmətləri haqqında elm adamlarının məqalələri yer alıb.

Kitabın tərtibçisi və redaktoru Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri, şair Fərid Hüseyndir.

Layihənin rəhbəri və ön sözünün müəllifi Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, görkəmli bəstəkar Aktotı Raimkulovadır.

A.Raimkulovanın kitaba yazdığı "Ədəbiyyatı əbədi yaşadan unudulmaz lider" adlı ön sözünü oxuculara təqdim edirik.

